# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydalarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 126; 2003, № 4, maddə 214, № 6, maddə 349; 2005, № 2, maddə 134; 2006, № 2, maddə 184, № 3, maddə 308; 2010, № 10, maddə 905; 2017, № 10, maddə 1888; 2019, № 7, maddə 1335; 2021, № 3, maddə 282, № 7, maddə 876, № 11, maddə 1287) ilə təsdiq edilmiş “Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1.3-cü yarımbəndə “yazılı” sözündən sonra “və ya Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində yaradılmış “Vahid elektron lövhə” bölməsi vasitəsilə tərtib edilmiş elektron (tutulması gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş

vergilər üzrə təqdim edilmiş ərizələr istisna olmaqla)" sözləri əlavə edilsin.

2. 4.10-cu bənddə "ərizənin və şəxsi vərəqədən çıxarışın surətləri" sözləri "yazılı ərizənin surəti və ya bu Qaydaların 4.1.3-cü yarımbəndinə uyğun olaraq tərtib edilmiş elektron ərizənin, habelə şəxsi vərəqədən çıxarışın "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələbinə uyğun surətləri" sözləri ilə əvəz edilsin və həmin bəndə "yerli maliyyə orqanına" sözlərindən sonra "müvafiq olaraq kağız daşıyıcıda və ya elektron formada (tutulması gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər üzrə təqdim edilmiş ərizələr istisna olmaqla)" sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 27 may 2022-ci il

№ 214